UOT: 618.15-002.2

Reproduktiv yaşlı qadınlarda bakterial vaginozun kliniki xüsusiyyətləri

M.C. Alcanova, S.A. Müslümova, G.İ. Babayeva,
G.H. Məmmədli, L.Q. Ağakişiyeva, P.A. Cavanşir
Azərbaycan Tibb Universiteti, II mama-ginekologiya kafedrası, Bakı

Müəllifin elektron poçt ünvanı: melek.aljanova@mail.ru

Açar sözlər: bakterial vaginoz, Amsel meyarları, Ph-metriya, mikrobioloji müayinə, medikamentoz müalicə, «Eljina» preparatı
Ключевые слова: бактериальный вагиноз, критерии Амселя, Ph-метрия, микробиологическое исследование, медикаментозное лечение, препарат «Элжина»
Key words: bacterial vaginosis, Amsel criteria, pH-metry, microbiological examination, drug treatment, Eljina preparation

Bakterial vaginoz – uşaqlıq yolu mikroflorasının kəskin disbalansı nəticəsində yaranan xəstəliyidir [2, 4, 8] ki, bu zaman qadın reproduktiv yolun aşağı şöbəsinin qeyri-patogen mikrobiotası patogen mikrobiota ilə əvəz olunur. Bakterial vaginoz reproduktiv yaşlı qadınlarda ən geniş yayılmış xəstəlik sayılır. Müxtəlif populyasiyalarda 24%-dən 50 %-ə qədər qadınlar bakterial vaginoz ilə xəstədirlər [1,7].

Bu xəstəliyin inkişafının risk amilləri – immunoloji, hormonal pozğunluqlar (ovaria-aybaşı siklinin pozulması, perimenopauzal keçid dövrü, abortdan sonrakı dövr), uşaqlıq yolunun selikli qişasının pozğunluqları, uşaqlıq yolunun epitelinin reseptor funksiyasının pozulmaları, uşaqlıq yolunun spesifik və qeyri-spesifik etiologiyalı keçirilmiş yoluxucu xəstəliklər, cinsiyyət orqanlarının travmaları (o cümlədən doğuşlardan sonra), bəzi qrup preparatların (qlükokortikosteroidlər, sitostatiklər) qeyri-rasional antibiotikoterapiyanın qəbul edilməsi və s. [5], həmçinin risk amili kimi kombinə olunmuş oral kontraseptivlərin tətbiqi və estradiolun səviyyəsinin azalması sayılır [8].

Bakterial vaginozun diaqnostikası əsas etibarilə R. Amsel meyarlarına əsaslanır ki, onlara aşağıdakılar aiddir: - uşaqlıq yolundan çoxlu miqdarda, homogen, xoşagəlməz iyə malik ağımtıl-boz ifrazatların gəlməsi, uşaqlıq yolunun ifrazatının pH qiyməti >4,5, amin testin müsbət nəticəsi, uşaqlıq yolunun ifrazatının mikroskopik müayinəsi zamanı «açar» hüceyrələrin aşkar edilməsi. Bu 4 meyardan 3-nün olması zamanı bakterial vaginoz diaqnozu qoyulur. Bakterial vaginozun klassik simptomu xarakterik «balıq» iyinə malik bozumtul rəngli vaginal ifrazatların miqdarının artması sayılır. Onun əmələ gəlməsi aminlərin hasil edilməsi ilə bağlıdır. Qadınlarda aralıq nahiyəsində kəskin qıcıqlanma simptomları (göynəmə, qaşınma, ağrı) və dizurik pozğunluqlar qeydə alınır. Göstərilən simptomlar bakterial vaginoz olan qadınların 70-90%-də rast gəlir [1, 6].

Bakterial vaginozun müalicəsində bir sıra peroral və intravaginal antibakterial preparatların istifadə olunmasına baxmayaraq, bu vəziyyətin müalicəsi mürəkkəb məsələ olaraq qalır. Residivləşən bakterial vaginoz tövsiyə olunan müalicəni alan pasiyentlərin 55%-dən çoxunda rast gəlir [9]. Təqribən 10-15% qadınlarda müalicənin ümumi qəbul edimiş sxemləri birincili effektivliyə malik deyildir [3].

Tədqiqatın məqsədi bakterial vaginozun müxtəlif müalicə sxemlərinin effektivliyinin müqayisə olunmasıdır.

Tədqiqatın material və metodları. Tədqiqat işi Azərbaycan Tibb Universitetinin II mama-ginekologiya kafedrasının klinik bazasında yerinə yetirilmişdir.

Tədqiqatda uşaqlıq yolunun ifrazatının mikroskopiyasının nəticələrinə əsasən aşkar edimiş bakterial vaginozu olan 6 pasiyent iştirak etmişdir. Pasiyentlərin hamısı tədqiqata daxil edilmə meyarlarına uyğun olmuşlar: 18-45 yaş, cinsiyyət yollarından ifrazatın gəlməsi ilə bağlı şikayətlər, son 4 həftə ərzində antibiotiklərin qəbul edilməməsi. Tədqiqatdan kənar edilmənin meyarları bunlardır: laktasiya dövründə hamiləlik; tədqiqatdan əvvəl 4 həfətə ərzində sistem antibakterial preparatların qəbul edilməsi; son 72 saat ərzində intravaginal antibakterial preparatların istifadə olunması; kontrasepsiya üçün kombinə olunmuş oral kontraseptivlərin, spermisidlərin, uşaqlıqdaxili spiralların, uşaqlıq yolu halqasının istifadə edilməsi; cinsi yolla yayılan infeksiyaların olması; kəskinləşmə dövründə kiçik çanağın kəskin və ya xronik iltihabi xəstəlikləri; ağır somatik xəstəliklər dekompensasiya fazasında; istənilən lokalizasiyalı bədxassəli xəstəliklər.

Pasiyentlərin hamısında klinik müayinə həyata keçirilmişdir: uşaqlıq yolunun ifrazatlarının xarakteri dəyərləndirilməklə ginekoloji baxış, uşaqlıq yolunun ifrazatının pH-metriyası, aminotest. Laborator müayinəyə uşaqlıq boynunun və uşaqlıq yolunun ifrazatının mikroskopik müayinəsi, servikal ifrazatın şərti-patogen floraya görə müayinəsi daxildir.

Bakterial vaginozun klinik diaqnostikası üçün R. Amsel meyarından istifadə edilmişdir. Bakterial vaginoz diaqnozu 4 meyardan ən azı 3-nün olması zamanı qoyulmuşdur: xoşagəlməz iyə malik spesifik vaginal ifrazatlar; uşaqlıq yolunun ifrazatının pH >4,5; müsbət amin test; mikroskopik müayinə zamanı «açar» hüceyrələrin aşkar edilməsi.

Bütün pasiyentlər terapiyanın növündən asılı olaraq 2 qrupa bölünmüşlər. Birinci qrupa 32 pasiyent daxil edilmişdir ki, onlar «Eljina» preparatı ilə uşaqlıq yoluna 1 həb olmaqla sutkada 1 dəfə 9 gün ərzində, daha sonra uşaqlıq yolu kapsulları «Laktojinal» 1 kapsul olmaqla gündə 2 dəfə 7 gün ərzində istfadə etmişlər. «Eljina» preparatının tərkibində ornidazol 500 mq, neomisin sulfat 65 000 BV, prednizolon 3 mq, ekonazol 100 mq vardır. İkinci qrupu 35 pasiyent təşkil etmişdir ki, onlar gel formasında metronidazol ilə (0,75%) 5 ml dozada sutkada 1 dəfə 5 gün ərzində intravaginal terapiya almış, daha sonra «Laktojinal» uşaqlıq yolu kapsullarını 1 kapsul olmaqla gündə 2 dəfə 7 gün ərzində istifadə etmişlər. Müalicənin effektivliyinin meyarları - subyektiv şikayətlərin, bakterial vaginozun klinik əlamətlərinin olmaması, eləcə də laborator təsdiq edilmiş normosenoz sayılır.

Əldə olunan rəqəm materialları Statistica 7,0 proqram paketinin köməyi ilə statistik işlənmədən keçirilmişdir.

Tədqiqatın nəticələri. Tədqiqata daxil edilən pasiyentlərin orta yaşı 29,8±3,2 il təşkil etmişdir, qruplar üzrə yaşa görə statistik əhəmiyyətli fərqlər aşkar edilməmişdir (p=0,27). Bütün pasiyentlər ilk müayinə zamanı uşaqlıq yolundan xoşəgəlməz «balıq» iyinə malik patoloji ifrazatların gəlməsi ilə bağlı şikayətlər söyləmişlər. Həkimə müraciət üçün əsas səbəb - xəstəliyin simptomlarının tez-tez residiv verməsi olmuşdur. Tez - tez rast gələn təhrik edici amillər arasında aybaşıönü dövr, cinsi partnyorun dəyişilməsi, orogenital əlaqələr qeyd olunmuşdur. Klinik müayinə zamanı bütün pasiyentlərdə uşaqlıq yolu ifrazatları bozumtul, boz-ağ rəngə malik olmuş, orta dərəcədə spesifik qoxu nəzərə çarpmışdır. Bütün pasiyentlərdə müalicənin başlanmasından əvvəl servikal kanaldan yaxmanın sitoloji müayinəsinin nəticələrində elə bir fərqli xüsusiyyətlər yoxdur, uşaqlıq yolunun arxa tağının ifrazatının bakterioloji müayinəsi zamanı patogen floranın artması qeydə alınmamışdır. *Chlamydia trachomatis, Trichomonas vaginalis, Neisseria gonorrhoeae* törədicilərinə görə aparılan müayinə zamanı onlar aşkar edilməmişlər.

Əldə olunan məlumatların dəyərləndirilməsi zamanı R. Amsel meyarlarına əsasən bakterial vaginoz birinci qrupda 32 (100,0 %) pasiyentdə və ikinci qrupda 35 (100,0 %) pasiyentdə təsdiq edilmişdir. Cinsiyyət yolundan patoloji ifrazatlarla əlaqədar şikayətlərin olmasına, bakterioloji müayinənin nəticələrinə, müsbət amin testinə və qruplarda pH-in səviyyəsinə görə dürüst fərqlər qeydə alınmamışdır (p> 0,05). Kontrol müayinə müalicənin 7-ci günü və müalicənin başa çatmasından 15 gün sonra aparılmışdır.

Birinci qrupda bütün pasiyentlər xoşagəlməz qoxuya malik olan bol ifrazatlarla əlaqədar şikayətlər söyləmişlər; 29 (90,6%) pasiyentləri cinsiyyət orqanlarında müxtəlif ifadə dərəcəsinə malik qaşınma narahat etmişdir, 2 (6,2%) pasiyent dispareuniyanı qeyd etmişlər. Vaginal ifazatların pH-metriyasının göstəricisi bütün qadınlarda terapiyanın başlanmasına qədər yüksək olmuşdur, pH 5,8±0,1 təşkil etmişdir. Amin testi 30 (93,7%) pasiyentlərdə müsbət olmuşdur. Uşaqlıq yolunun yaxmalarının mikroskopiyası zamanı uşaqlıq yolunun arxa tağında leykositlərin orta sayı görmə sahəsində 7,231±5,4, səthi epitelial hüceyrələrin sayı 5,670±3,9 təşkil etmişdir, bütün yaxmalarda açar hüceyrələr aşkar edilmişdir.

Bakterioloji müayinə zamanı sanasiyanın başlanmasına qədər bakterial vaginozun aşağıdakı başlıca törədiciləri aşkar edilmişdir: *Atopobium vaginae* - 6 (18,7%), *Gardnerella vaginalis* - 27 (84,3%) pasiyentdə. Uşaqlıq yolunun biosenozunun vəziyyətinin dəyərələndirilməsindən sonra nisbi normosenoz 8 (25,0%) pasiyentdə, mülayim anaerob disbioz - 11 (34,3%), kəskin anaerob disbioz – 11 (34,3%), mülayim qarışıq disbioz –2 (6,2%) qadında təyin edilmişdir. 13 (40,6%) halda laktobakteriyaların sayı 10%-dən çox olmamışdır, 11 (34,3%) halda laktobakteriyaların sayı 11-50%, təşkil etmiş, laktobakteriyaların sayı 50%-dən çox ən az halda - 8 (25,0%) təyin edilmişdir.

Aparılan terapiyanın effektivliyinə aralıq dövrdə nəzarət məqsədi ilə müalicənin 7-ci günü «Eljia» preparatını alan pasiyentlərin müayinəsi aparılmışdır. Dəyərləndirmə R.Amsel meyarlarının vasitəsilə həyata keçirilmişdir. Bu qrupda 7 (21,8%) pasiyentdə cinsiyyət yollarında köpüklü ifrazatlar vardır, pH > 4,5 qiyməti 10 (31,2%) müayinə olunanlarda müəyyən edilmişdir, amin testi da həmçinin 10 (31,2%) nəfərdə müsbət qalmışdır, açar hüceyrələr bakterioskopik müayinə zamanı 6 (18,7%) nümunələrdə aşkar edilmişdir.

Müalicənin başa çatmasından 15 gün sonra xəstəliyin simptomlarının tam reqressiyası 30 (93,7%) pasiyentdə qeydə alınmış (p<0,001), 2 (6,3%) qadında isə cinsiyyət yollarından xoşagəlməz iyə malik patoloji ifrazatlar aşkar olunmuş, cinsiyyət orqanlarının qaşınması müəyyən edilmişdir. Müqayisə zamanı pasiyentlər tərəfindən müalicədən əvvəl və müalicənin başa çatmasından sonra söylənilən şikayətlər üzrə statistik dürüst fərqlər qeyd edlmişdir (p<0,001).

Bakterioskopiyanın məlumatlarının müalicədən əvvəl və sonra müqayisə edilməsi zamanı uşaqlıq yolunun möhtəviyyatında leykositlərin orta sayı görmə sahəsində 6,365±2,1 təşkil etmişdir, uşaqlıq yolunun yaxmalarının mikroskopiyası zamanı açar hüceyrələr 2 (6,3%) halda aşkar edilmişlər. Pasiyentlərin bu qrupunda uşaqlıq yolunun arxa tağının möhtəviyyatının bakterioskopik müayinəsi zamanı müalicədən sonra açar hüceyrələrin olmasına əsasən dürüst fərqlər nəzərə çarpmışdır (p< 0,001).

Müalicədən sonra uçucu aminlərin təyin edilməsinə görə aparılan test 6 (18,7%) nümunələrdə müsbət olmuşdur. 28 (87,5%) hadisədə uşaqlıq yolunun arxa tağının möhtəviyyatında pH= 4,0-ə bərabər olmuşdur. Müalicədən əvvəl və sonra amin testinin aparılması və pH-in ölçülməsi zamanı dürüst fərqlər p< 0,001 göstəricisi ilə təsdiq olunur.

Tədqiqatın məlumatlarına əsasən bu qrupdakı pasiyentlərdə normosenoz üstünlük təşkil etmişdir ki, o, 30 (93,7%) pasiyentdə qeydə alınmışdır (p<0,001). Kəskin qarışıq disbioz 2 (6,3%) hallarda təyin edilmişdir. Müalicənin başa çatmasından sonra mülayim anaerob disbioz, kəskin anaerob disbioz və mülayim qarışıq disbioz təyin edilməmişdir. Bakterioloji müayinələrin məlumatlarına əsasən laktobakteriyaların sayı 30 (93,7%) nümunədə normal qiymətlərə (51–100 %) çatmışdır, laktobakteriyaların sayının kəskin azalması 2 (6,3%) pasiyentlərdə müşahidə edilmişdir. Uşaqlıq yolunun arxa tağının ifrazatının müayinəsinin məlumatlarına əsasən *Gardnerella vaginalis* heç bir halda rast gəlməmişdir, *Atopobium vaginae* müalicədən sonra 2 (6,3%) pasiyentdə aşkar edilmişdir (p<0,001).

Beləliklə, R.Amsel meyarlarına əsasən «Eljina» kompleks preparatının effektivliyi 93,7% təşkil etmişdir.

İkinci qrupda bütün pasiyentlərin cinsiyyət yollarından xoşagəlməz iyə malik patoloji ifrazatlarla əlaqədar şikayətləri olmuşdur, 31 (88,5%) pasiyenti cinsiyyət orqanlarında müxtəlif ağırlıq dərəcəsinə malik qaşınma narahat etmişdir, 3 (8,5%) pasiyent dispareuniyanı, 2 (5,7%) pasiyent dizuriyanı qeyd etmişlər. Bütün müayinə olunan qadınlarda uşaqlıq yolunun ifrazatının pH-nın 6,0±0,2-ə qədər yüksəlməsi aşkar edilmişdir. Aminotest 33 (94,3%) qadında müsbət olmuşdur. Uşaqlıq yolunun yaxmasının bakterioskopik müayinəsi zamanı leykositlərin orta sayı görmə sahəsində 5,741±4,6, səthi epitelial hüceyrələrin sayı 5,426±2,3 təşkil etmişdir, bütün yaxmalarda açar hüceyrələr aşkar edilmişdir.

Bakterioloji müayinə zamanı sanasiyanın başlanmasına qədər aşağıdakı törədicilər aşkar edilmişdir: *Atopobium vaginae* — 7 (20,0%), *Gardnerella vaginalis* — 33 (94,2 %) pasiyentdə. Uşaqlıq yolunun biosenozunun vəziyyətinin dəyərləndirilməsindən sonra nisbi normosenoz 9 (25,7%) pasiyentdə, mülayim anaerob disbioz - 12 (34,2%), kəskin anaerob disbioz – 14 (40,0%) pasiyentdə təyin edilmişdir. Mülayim qarışıq disbioz və kəskin qarışıq disbioz hadisələri pasiyentlərin bu qrupunda müşahidə edilməmişdir. 14 (40,0%) müşahidələrdə laktobakteriyaların sayı 0-10%-ə bərabərdir, 12 (34,2%) hallarda laktobakteriyaların sayı 11-50% təşkil etmişdir, 9 (25,7%) hallarda laktobakteriyaların sayı 50%-dən yüksək olmuşdur.

Aparılan terapiyanın effektivliyinə aralıq nəzarət etmək məqsədi ilə müalicənin 7-ci günündə metronidazol preparatını qəbul edən pasiyentlərin müayinəsi yerinə yetirilmişdir. Dəyərləndirmə R. Amsel meyarlarının vasitəsilə aparılmışdır. Pasiyentlərin bu qrupunda 10 (28,5%) qadında cinsiyyət yollarından köpüklü ifrazatlar qalmışdır, müayinə olunanların 18 (51,4%) nəfərində pH > 4,5 qiyməti təyin edilmişdir, amin testi 12 (34,2%) nəfərdə müsbət qalmışdır, bakterioskopik müayinə zamanı açar hücyrələr 11 (31,4 %) nümunələrdə aşkar edilmişdir.

Aparılan müalicədən 15 gün sonra terapiyanın effektivliyinə nəzarət etmək üçün qadınların müayinəsi həyata keçirilmişdir. Bu qrupda xəstəliyin simptomları 16 (45,7%) qadında tamamilə itmişdir. Xarici cinsiyyət orqanlarının nahiyəsində qaşınma və göynəmə 7 (20,0%) qadında qeyd olunmuşdur (p>0,05), patoloji ifrazatların olmasını 16 (45,7%) qadın göstərmişlər (p<0,001), 7 (20,0%) pasiyent cinsiyyət yollarından xoşagəlməyən qoxununun olmasına diqqət vermişlər (p<0,001). Cinsiyyət orqanlarında qaşınma, göynəmə ilə əlaqədar şikayətlərin müqayisə edilməsi zamanı müalicədən əvvəl və sonra dürüst fərqlər olmamışdır (p>0,05).

Müalicədən əvvəl və sonra bakterioskopiyanın məlumatlarının müqayisə edilməsi zamanı uşaqlıq yolunun ifrazatlarında leykositlərin orta sayı görmə sahəsində 6,450±3,8 təşkil etmişdir. Müalicədən sonra uşaqlıq yolunun yaxmalarının mikroskopiyası zamanı açar hüceyrələr 8 (22,8%) pasiyentdə aşkar edilmişlər. Uşaqlıq yolunun arxa tağının möhtəviyyatının bakterioskopik müayinəsi zamanı aparılan terapiyadan sonra dürüst fərqlər açar hüceyrələrin olmasına görə müəyyən edilmişdir (p< 0,001). Həmçinin uşaqlıq yolunun yaxmalarının mikroskopiyası zamanı 9 (25,7%) pasiyentdə göbələklərin miseliləri təyin edilmişdir.

Bu qrupda müalicədən sonra 13 (37,1%) nümunələrdə amin testi müsbət qalmışdır. Aparılan terapiyadan sonra nümunələrin yarısında pH= 4,0 qeydə alınmışdır. Müalicədən əvvəl və sonra amin testinin aparılması və pH-in ölçülməsi zamanı dürüst fərqlər aşkar edilmişdir (p<0,001).

Pasiyentlərdə aparılan təhlilin nəticələrinə əsasən normosenoz 24 (68,5%) hallarda üstünlük təşkil etmişdir. Disbiozlar arasında çox vaxt kəskin anarob disbioz – 7 (20,0%) müayinə olunanlarda, mülayim anaerob disbioz nadir hallarda – 1 (2,8%) pasiyentdə, kəskin qarışıq disbioz 3 (8,5%) qadında qeydə alınmışdır. Bu qrupda dürüst fərqlər müalicədən əvvəl və sonra normosenozun göstəricilərində, mülayim anaerob disbioz, kəskin anaerob disbioz göstəricilərində müəyyən edilmişdir (p<0,05). Kəskin qarışıq disbiozun aşkar edilməsi zamanı statistik əhəmiyyətli fərqlər müşahidə edilməmişdir (p>0,05). Təhlilin məlumatlarına əsasən müalicədən sonra laktobakteriyaların sayı 25 (71,4 %) hallarda normal olmuşdur (51–100 %), laktobakteriyaların sayının kəskin azalması 10 (28,5%) nümunələrdə müşahidə edilmişdir.

Uşaqlıq yolunun arxa tağının ifrazatının bakterioloji müayinəsinin məlumatlarına əsasən müalicədən sonra *Atopobium vaginae* 6 (17,1%), *Gardnerella vaginalis* — 12 (34,2%), *Candida albicans* - 7 (20,0%) pasiyentdə aşkar edilmişdir (p<0,001).

Beləliklə, R. Amsel meyarlarına əsasən vaginal tətbiq zamanı metronidazolun effektivliyi 45,7% təşkil etmişdir. 7 (20,0%) hallarda metronidazolun tətbiq edilməsi vulvovaginal kandidozu provokasiya etmişdir.

Tədqiq olunan qruplarda pasiyentlərin müalicəsinin məlumatlarının müqayisəli xarakteristikası aşağıdakıları göstərmişdir. R. Amsel meyarlarına əsasən müalicənin 7-ci günü terapiyanın effektivliyi birinci və ikinci müşahidə qrupunda olan pasiyentlərdə öyrənilən parametrlər üzrə fərqlənməmişdir. Həm birinci, həm də ikinci qrupun pasiyentlərində köpüklü ifrazatlar (p=0,780), müsbət amin testi (p=0,590), pH-ın >4,5 qiyməti (p=0,070) və açar hüceyrələr (p=0,250) təyin edilmişdir.

Müalicədən sonra tədqiq olunan qruplardakı pasiyentlərin müayinə edilməsi zamanı birinci qrupdakı pasiyentlərdə dürüst fərq pH-ın >4,5 qiymətində əldə olunmuşdur (p= 0,008). Müalicədən sonra dürüst fərqlər birinci qrupda olan pasiyentlərdə ikinci qrupa nisbətən normosenozun aşkar edilməsi zamanı, mülayim anaerob disbioz və kəskin anaerob disbiozun göstəricilərində müşahidə edilmişdir (p=0,040). Qadınlarda müalicədən sonra urogenital yolun müayinəsinin məlumatlarına əsasən laktobakteriyaların sayı göstərmişdir ki, birinci qrup ilə müqayisədə ikinci qrupda laktobakteriyalar 0–10% sayda dürüst tez-tez aşkar edilmişdir (p=0,010). Analoji olaraq birinci qrupda ikinci qrupla müqayisədə laktobakteriyalar 51–100 % nisbətində dürüst tez-tez təyin edilmişdir (p=0,010). Müalicədən sonra ikinci qrupda birinci qrupa nisbətən *Gardnerella vaginalis* (p=0,040) və *Candida albicans-in* aşkar edilməsi zamanı dürüst fərqlər müəyyən olunmuşdur (p=0,010). İkinci qrupda aparılan müalicə vulvovaginal kandidozun inkişaf etməsi ilə ağırlaşmışdır (p=0,005).

Aparılan farmakoterapiya nəticəsində pasiyentlərdə müalicədən sonra 15-ci günü onların vəziyyətinin bütün məqsədli göstəricilər üzrə yaxşılaşması müşahidə olunmuşdur. Ən böyük klinik effektivlik «Eljina» preparatı ilə kombinə olunmuş terapiya alan birinci qrupda olan pasiyentlərdə müşahidə edilmişdir (p<0,05).

Təhlilin aparılması zamanı farmakoterapiyanın effektivliyinin inteqral göstəricisi hesablanmışdır ki, buraya bakterial vaginozu olan pasiyentlərdə həyata keçirilən müalicənin məlumatları daxil edilmişdir. Analizə klinik yaxşılaşmanın əldə olunduğu pasiyentlər və residivlər müşahidə edilməyən pasiyentlər məruz qalmışlar. Aparılan təhlil göstərdi ki, birinci qrupdakı pasiyentlərdə farmakoterapiyanın effektivliyinin inteqral göstəricisinin qiyməti 80,0 vahid təşkil etmişdir ki, bu da ikinci qrupdakı pasiyentlərdə 57,5 vahidə bərabər olan analoji göstəricidən 1,4 dəfə yüksək olmuşdur.

Yekun. Beləliklə, bakterial vaginoz ilə xəstələrdə kompleks terapiyanın tərkibində antibakterial, antiprotozoy, göbələkəleyhinə və iltihabəleyhinə təsirə malik kombinə olunmuş «Eljina» preparatının tətbiq edilməsi müalicənin klinik effektivliyinin 93,7%-ə çatmasına imkan vermiş və vulvovaginal kandidoz kimi ağırlaşmanın inkişaf etməsinə gətirib çıxarmamışdır.

ƏDƏBİYYAT

1. Abou Chacra L., Fenollar F., Diop K. Bacterial Vaginosis: What Do We Currently Know? // Front Cell Infect Microbiol. 2022, 11, p. 672429.

2. Chen X., Lu Yu., Chen T., Li R. The Female Vaginal Microbiome in Health and Bacterial Vaginosis // Front Cell Infect Microbiol. 2021, 11, p. 631972

3. Faught B.M., Reyes S. Characterization and treatment of recurrent bacterial vaginosis // J. Women's Health (Larchmt), 2019, 28(9), p. 1218-1226.

4. Han Y., Liu Z., Chen T. Role of Vaginal Microbiota Dysbiosis in Gynecological Diseases and the Potential Interventions // Front. Microbiol. 2021. 12, 643422.

5. Javed A., Parvaiz F., Manzoor S. Bacterial vaginosis: An insight into the prevalence, alternative treatments regimen and it's associated resistance patterns // Microb. Pathog. 2019, 127, p.21-30.

6. Muzny C.A., Kardas P. A narrative review of current challenges in the diagnosis and management of bacterial vaginosis // Sex Transm. Dis., 2020, 47(7), 441–446.

7. Peebles K., Velloza J., Balkus J.E., McClelland R.S., Barnabas R.V. High Global Burden and Costs of Bacterial Vaginosis: A Systematic Review and Meta-Analysis // Sex Transm Dis. 2019, 46 (5), p. 304-311.

8. Song S.D., Acharya K.D., Zhu J.E. et al. Daily vaginal microbiota fluctuations associated with natural hormonal cycle, contraceptives, diet, and exercise // mSphere. 2020, 5(4), e00593-20.

9. Vodstrcil L.A., Muzny C.A., Plummer E.L. et al. Bacterial vaginosis: drivers of recurrence and challenges and opportunities in partner treatment // BMC Med. 2021, 19, p.194

Резюме

Клинические особенности бактериального вагиноза у женщин репродуктивного возраста

М.Ч. Алджанова, С.А. Муслимова, Г.И. Бабаева, Г.Х. Мамедли, Л.Г. Агакишиева, П.А. Джаваншир

Цель исследования – сравнить эффективность различных схем лечения бактериального вагиноза. Исследование проводилось на клинической базе II кафедры акушерства и гинекологии Азербайджанского медицинского университета. В исследовании приняли участие 6 пациенток с бактериальным вагинозом, выявленным по результатам микроскопии влагалищного отделяемого. В ходе анализа был рассчитан интегральный показатель эффективности фармакотерапии, включающий данные о лечении пациенток с бактериальным вагинозом. В анализ были включены пациентки, у которых было достигнуто клиническое улучшение, и пациентки, у которых не наблюдалось рецидивов. Проведенный анализ показал, что значение интегрального показателя эффективности фармакотерапии у пациенток первой группы составило 80,0 ед., что в 1,4 раза превысило аналогичный показатель у пациенток второй группы, который составил 57,5 ед. Таким образом, применение комбинированного препарата «Эльжина» с антибактериальным, противопротозойным, противогрибковым и противовоспалительным действием в составе комплексной терапии больных бактериальным вагинозом позволило достичь клинической эффективности лечения 93,7% и не привело к развитию такого осложнения, как кандидозный вульвовагинит.

Summary

Clinical Features of Bacterial Vaginosis in Women of Reproductive Age

M.Ch. Aljanova, S.A. Muslimova, G.I. Babayeva, G.Kh. Mamedli, L.G. Agakishiyeva, P.A. Javanshir

The aim of the study was to compare the effectiveness of various treatment regimens for bacterial vaginosis. The study was conducted at the clinical site of the 2nd Department of Obstetrics and Gynecology of the Azerbaijan Medical University. Six patients with bacterial vaginosis, diagnosed by vaginal discharge microscopy, participated in the study. An integrated indicator of the effectiveness of pharmacotherapy was calculated, including data on the treatment of patients with bacterial vaginosis. The analysis included patients who achieved clinical improvement and those who did not experience relapses. The analysis showed that the integrated efficacy index of pharmacotherapy in patients in the first group was 80.0 units, which was 1.4 times higher than the similar index in patients in the second group, which was 57.5 units. Thus, the use of the combination drug "Elzhina," with antibacterial, antiprotozoal, antifungal, and anti-inflammatory action, as part of the comprehensive treatment of patients with bacterial vaginosis resulted in a clinical efficacy of 93.7% and did not lead to the development of complications such as candidal vulvovaginitis.

Daxil olub: 03.12.2024